# Din nəsihətdir

Əbu Ruqayya Təmim bin Ovs əd-Dəri (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi va səlləm) belə demişdir: "Din nəsihətdir". Biz dedik: Kimə? Peyğəmərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun): "Allaha, kitabına, rəsuluna, müsəlmanların rəhbərlərinə və bütün müsəmanlara" - deyə buyurdu.
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (sallallahu aleyhi va səlləm) Dinin ixlas və səmimiyyət üzərində qurulduğunu xəbər vermişdir. Beləliklə bu din, Uca Allahın vacib buyurduğu kimi qüsursuz və aldatma olmadan kamil şəkildə yerinə yetirilməlidir. Peyğəmbərdən (sallallahu aleyhi va səlləm) soruşdular: Səmimiyyət kimin üçün olmalıdır? O, belə cavab verdi: Birincisi: Səmimiyyət Uca və Pak olan Allah üçün olmalıdır. Bu, əməllərdə ixlaslı olmaq, Ona heç bir şərik qoşmamaq, Onun aləmlərin Rəbbi olduğuna, bütün ibadətlərin yalnız Ona məxsus olduğuna və ad və sifətlərinə iman gətirmək, Onun şanını ucaltmaq və insanları Ona iman etməyə dəvət etməklə olur. İkincisi: Səmimiyyət Uca Allahın Kitabı, Qurani-Kərim üçün olmalıdır. Bu, Quranın, Allahın kəlamı və kitabların sonuncusu olduğuna və Qurani-Kərimin özündən əvvəlki bütün şəriətlərin hökmünü ləğv etdiyinə etiqad etməklə, ona böyük hörmətlə yanaşmaqla, Qurani-Kərimi layiqincə oxumaqla, mühkəm (aydın və qəti olan) ayələrinə əməl etməklə, mütəşabih ayələrinə təslim olmaqla, Onun ayələrini təhrif edənlərin öz istəklərinə uyğun yozmalarını rədd etməklə, Quranın öyüdlərindən ibrət almaqla, Quran elmini təbliğ etməklə və insanları ona dəvət etməklə olur. Üçüncüsü: Səmimiyyət Allahın Rəsulu Muhəmməd (sallallahu aleyhi va səlləm) üçün olmalıdır. Bunun üçün Onun elçilərin sonuncusu olduğuna etiqad edirik, dediklərini təsdiq edirik, əmrlərinə tabe olub, qadağalarından çəkinirik, Uca Allaha yalnız onun gətirdiyi şəriətlə ibadət edirik, onun haqqını uca tutub, ona hörmət edirik, dəvətini yayır, şəriətini insanlara çatdırırıq, ona qarşı atılan ittihamları rədd edirik. Dördüncüsü: Səmimiyyət müsəlmanların rəhbərləri üçün olmalıdır. Bunun üçün haqq yolda onlara yardım göstərir, idarəçilik məsələsində onların işinə qarışmırıq, Allaha itaət çərçivəsində onları eşidib itaət edirik. Beşincisi: Səmimiyyət müsəlmanlar üçün olmalıdır. Bunun üçün onlara yaxşılıq edib, haqqa dəvət edirik, onlara əziyyət verməkdən çəkinirik, onlar üçün xeyir istəyib, yaxşılıq və təqvada onlarla yardımlaşırıq.

النجاة الخيرية
ALNAJAT CHARITY

لجنة الدعوة الإلكترونية
EDC
E-Da'wah Committee